# Azərbaycan monumental heykəltaraşlığının ilk qadın nümayəndəsi

**Azərbaycanın görkəmli ilk monumentalçı qadın heykəltarşı, Əməkdar rəssam Münəvvər Rzayeva 1929-cu il iyunun 6-da Şuşada dünyaya gəlib. Atası Məcid kişi Şuşada xalça ustası kimi tanınırdı. Sənətkar ailəsində böyüməsi Münəvvər Rzayevanın peşə seçiminə güclü təsir göstərmişdi. Böyük arzularla orta məktəbi bitirən gənc Münəvvər Bakıya gəlib, Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinə (indiki Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci) daxil olmuşdu. Rəssamlıq məktəbində təhsilini başa vurduqdan sonra ali təhsil almaq üçün Moskvaya yollanmışdı. Münəvvər Rzayeva V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq Akademiyasının Heykəltaraşlıq fakültəsində Nikolay Tomskinin sinfində oxumuşdu.**






## *Nazim Hikmətin mənəvi qızı*

M.Rzayeva 1954-cü ilin noyabrında Moskvada şair Nazim Hikmətlə tanış olur. Qürbətdə doğma Türkiyəsinin, oradakı yaxınlarının, həyat yoldaşı Münəvvərin ayrılığının acısını yaşayan şair azərbaycanlı tələbə qızın adını eşidəndə böyük hüznlə deyir: “Bura gəldiyim vaxtdan ilk dəfə Münəvvərin adını eşidirəm, ona görə də bir an özümü pis hiss etdim”.

Münəvvər Rzayeva Nazim Hikmətə söyləyir ki, onun büstünü hazırlamaq istəyir. Şair gənc tələbənin təklifini qəbul edir. Heykəl üzərində iş aylarla çəkir.

Kiçik yaşlarından atasını itirmiş Münəvvər Rzayeva ilə şairin arasında səmimi münasibət yaranır. 1954-cü ilin soyuq qışında Münəvvərin ağır sətəlcəm olmasından narahatlıq keçirən Nazim Hikmət onun müalicəsi üçün ən yaxşı həkimlərə müraciət edir. Münəvvər xəstəlikdən çətinliklə qurtula bilir. Nazim Hikmət ona gözləmədiyi bir təklifi edir: “Münəvvər, mənim oğlum var, istəyirəm qızım da olsun. Sən mənim qızım olarsanmı?” Gənc Münəvvər bu təklifdən məmnun qalır, qürurlanır. Şairin yanına köçür. Nazim Hikmət Münəvvər Rzayevaya xatirə olaraq verdiyi portretinin arxasına bu sözləri yazır: “Adaşın mənə görə bəxtiqara oldu, sənə faydam toxunar inşallah, qızım”.

1956-cı ildə Münəvvər Rzayeva institutu bitirəndə Nazim Hikmət mənəvi qızına təkidlə deyir ki, Bakıya qayıtmasın. Amma Münəvvər bundan imtina edir. Əvvəla ona görə ki, vətənində onu anası gözləyirdi. İkincisi isə, Münəvvər Rzayeva öz istedadı, əməyi ilə tanınmaq arzusundaydı. İstəmirdi məşhur şairin şöhrətinə sığınsın, onu “Nazim Hikmətin qızı” kimi tanıyıb əlindən tutsunlar.

Beləliklə, gənc heykəltaraş 1956-cı ildə ali təhsilini başa vurub Azərbaycana qayıdır. Ancaq qərib şair Nazim Hikmətin ona dediyi son sözləri unuda bilmir. “Münəvvər, bilirəm, mən öldükdən sonra abidəmi hazırlayacaqsan. Onun üstündə uzaqda qalmış bir qadın surəti, bir də mənim gözlərimi həkk et. Yaşamaq istəyirəm. Baxmaq, görmək istəyirəm”.

Münəvvər Rzayeva Nazim Hikmətin vəsiyyətinə əməl edərək şairin büstünü hazırlayır. Həmin büst hazırda Zaqatala muzeyindədir.

## *Yüzədək əsərin müəllifi*

Münəvvər Rzayeva 1953-cü ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü olub. Mədəniyyət Nazirliyinin Dövlət Komissiyasının üzvü seçilib, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) Nizami adına Ədəbiyyat Muzeyində bərpaçı rəssam kimi fəaliyyət göstərib, bir sıra heykəlləri bərpa edib.

Münəvvər xanım istedadlı olduğu qədər də məhsuldar rəssam idi. O, yüzədək müxtəlif səpkili sənət əsərinin müəllifidir. Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində, Ordubadi muzeyində, Siyəzən Mədəniyyət Evində, Bədii fondda və digər yerlərdə saxlanılır.




Mütəxəssislər özünəməxsus dəst-xətə malik olan heykəltaraş Münəvvər Rzayevanı psixoloji portret ustası hesab edirlər. Araşdırıcılar görkəmli heykəltaraşın yaratdığı əsərlərin hər bir detalının obrazın ümumi ideyasının açılmasına xidmət etdiyini deyirlər.

Münəvvər Rzayevanın yaradıcılığında sənət adamlarının, həmçinin dövlət xadimlərinin və əmək qəhrəmanlarının heykəlləri, büstləri, barelyefləri əsas yer tutur. Heykəllərini yaratmaq üçün qranit, mərmər, bürünc, ağac və digər materiallardan istifadə edirdi. Hüseyn Cavid, Mikayıl Müşfiq, Sergey Yesenin, Nəriman Nərimanov, Nazim Hikmət, Bəhmənyar, Məhsəti Gəncəvi, Mirzə Ələkbər Sabir, Mehdixan Vəkilov, Nigar Rəfibəyli, Sevil Qazıyeva və başqalarının heykəlləri, büstləri onun yaradıcılığının məhsullarıdır. Heykəltaraşın sonuncu işlərindən biri Qusar rayonunda yerləşən dağın 3763 metr hündürlüyündəki “Heydər zirvəsi”nə bərkidilən Heydər Əliyevin tunc barelyefidir.

Adı incəsənət tarixinə Azərbaycan monumental heykəltaraşlığının ilk qadın nümayəndəsi kimi daxil olan Münəvvər Rzayeva 2004-cü il iyunun 6-da - doğum günündə dünyasını dəyişib.

*Z.FƏRƏCOVA,*
*“Azərbaycan”*

Azərbaycan. - 2023.- 11 iyun.- S.5.